# İBTİDAİ SİNİFLƏRDƏ YAZI İŞLƏRİNƏ DAİR YENİ VƏSAİT

Şagirdlərdə Azərbaycan dili üzrə düzgün yazı və oxu vərdişlərinin formalaşdırılmasının əsası ibtidai siniflərdə qoyulur. Bu vərdişlərin yaranmasında imla, ifadə və inşalar (o cümlədən, esselər) çox böyük əhəmiyyət kəsb edir.

Artıq neçə illərdir ki, ümumtəhsil məktəblərinin ibtidai təhsil pilləsində dil dərsləri yeni fənn proqramları əsasında hazırlanmış dərsliklərlə aparılır. Bu dərsliklərdə 4 məzmun xətti: “Dinləyib-anlama və danışma”, “Oxu”, “Yazı” və “Qrammatik qaydalar” praktik istiqamətdə reallaşdırılır. Şagirdlərin dərsliklərdəki imla, ifadə, inşa xarakterli çalışmalarla yanaşı, təcrübi yolla qazandıqları bacarıqların tətbiqi məqsədilə yoxlama imla və ifadələrə də ehtiyac var. Bu yaxınlarda nəşr olunmuş “İmla, ifadə mətnləri, esse mövzuları” (“Elm və təhsil”, Bakı, 2017) adlı vəsait məhz həmin ehtiyacları ödəmək üçün nəzərdə tutulmuşdur. Vəsaitin müəllifi Azərbaycan Respublikasının Əməkdar müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru **Bəsti Mehralıyevadır**.

Sevindirici haldır ki, vəsait estetik cəhətdən nəfis və göz oxşayan tərtibatla buraxılmışdır.

Vəsaitin didaktik sistemi elədir ki, burada I–IV siniflər üzrə Azərbaycan dili proqramına uyğun 350-dən artıq imla və ifadə mətnləri verilmişdir. İmlaların bir çoxunda qrammatik tapşırıqlar verilir. Hər sinif üzrə imla və ifadə mətnləri qruplaşdırılmış, çətinlik dərəcəsi, orfoqrafiya və orfoepiya üzrə şagirdlərin bilik səviyyəsi nəzərə alınmışdır.

Vəsaitdə didaktik xarakterli folklor nümunələri ilə yanaşı, klassik və müasir yazıçıların əsərlərindən nümunələrə də geniş yer verilmişdir. Burada təbiət və cəmiyyət barədə kifayət qədər informasiya verən, habelə şagirdlərə elmi dünyagörüşü aşılayan mətnlər vardır. Bu mənada vəsait uşaq ensiklopediyasını xatırladır.

Şagirdlərin müstəqil fəaliyyətinin təşkilində və yaradıcı təfəkkürlərinin inkişafında esselərin də xüsusi yeri vardır. Vəsaitdə cəmiyyət həyatının müxtəlif sahələrini əhatə edən 100-dən artıq esse mövzusu təqdim olunmuşdur. Bunlardan səmərəli şəkildə istifadə etmək müəllimin öhdəsinə düşür.

Vəsaitin əvvəlində imlaların növləri və qiymətləndirmə meyarları, aparılması yolları, orfoqrafiya qaydaları haqqında geniş məlumat verilməsi müəllimlərin öz işlərini düzgün qurmalarına yardım göstərir.

Rabitəli mətnlər imla, ifadə və inşa üçün nəzərdə tutulsa da, müəllim onları daha məzmunlu yazılara çevirməklə şagirdlərin müstəqil işini təşkil edə bilər.

B.Mehralıyeva böyük zəhmət tələb edən bu işin öhdəsindən layiqincə gələrək, çox lazımlı bir vəsait ərsəyə gətirmişdir. Vəsaitdəki materiallardan V sinif şagirdlərinin orfoqrafik-orfoepik biliklərini diaqnostik yolla yoxlayıb qiymətləndirmək məqsədilə də istifadə oluna bilər.

**Sevda Abasova,**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
ADPU-nun müəllimi